Ədalət.- 2023.- 14 iyul.- S.6.

# Bir ömür yollarında

## (Şirxan Aranlının "Mən olmayanda" şeirlər kitabı haqqında)



*Vaqif Yusifli*

**Şirxan Aranlı köklü qarabağlıdır - Ağcəbədidə dünyaya gəlib, bütün varlığı ilə öz doğma rayonuna bağlı olan Şirxan Aranlı universitet təhsilini başa vurduqdan sonra Ağcəbədiyə qayıdıb, rayon qəzetində fəal iştirak edib, publisistik yazıları ilə oxucuların rəğbərini qazanıb, uzun illər rayon qəzetinin redaktoru olub. Onun Ağcəbədiyə olan böyük sevgisi "Ağcəbədi - ensiklopedik toplu" kiotabında (2021) öz əksini tapıb. Şirxan Aranlı iki hissədən ibarət olan "Yurd həsrəti" romanının da müəllifidir. Bu romanda Qarabağda baş verən hadisələrdən söz açılır. Yeri gəlmişkən deyim ki, Şirxan Aranlı digər nəsr əsərlərinin də müəllifidir. Ancaq mən Şirxan Aranlı ŞAİR kimi sizə təqdim etmək istəyirəm. Onun yenidən çapdan çıxan "Mən olmayanda" şeirlər, poemalar kitabında siz onu istedadlı bir şair kimi tanıyacaq və sevəcəksiniz.**

Kitab "Vətən şərəfimizdir" bölməsi ilə açılır və bu bölmədə biz onu öz Vətəninin - böyük Azərbaycanın taleyi ilə yaşayan bir şair kimi görürük.

***Neçə ildi Qarabağda***
***qanlar axır***
***İnsanların nalələri***
***ərşə qalxır,***
***Dünya baxır,***
***Dünya susur,***
***Laldı dünya!***

***Raketlərin, bombaların***
***müdhiş səsi,***
***Əsr edir hər bir kəsi,***
***Dünya baxır,***
***Dünya susur.***

"Dünya susur" adlı bu şeirdə Şirxan Aranlı xalqın səsini ifadə edir, 30 illik işğal dövründə dünya ölkələrinin Vətənimizə qarşı biganəliyi, ikili standartların hökm sürdüyü zamanda səsini ucaldır. Amma şeirin sonu nikbinliklə başa çatır:

***Cənnətməkan Qarabağım,***
***Otuz illik o göz dağı***
***Ermənyə pay eyləməz,***
***Türk ya ölər, ya öldürər,***
***Fəqət heç vaxt, heç bir zaman***
***yağı önündə əyilməz***
***Türk dığaya aman verməz!***

Şirxan Aranlı "Vətən oğlu", "Azərbaycan bayrağım", "Qələbə bizimdir", "Şuşa bayatılar" və s. şeirlərində də sözlə döyüşür. "Zəfər mahnısı" çalır. Ümumiyyətlə, hər bir Azərbaycan şairi kimi susmur. Susa da bilməzdi. Onun "İnsan və zaman" bölməsində olan şeirləri isə Şair və Zaman vəhdətini ifadə edir, yəni şair yaşadığı dövrün, zamanın həqiqətlərini əks etdirməlidir. Dünya dəyişib, dəblər, qaydalar yenilənib, bu dəyişilmədə, yeniləşmədə çox vaxt ədəbi meyarlar unudulur:

***Çoxalıbdı mərdi namərd edənlər,***
***Şöhrət üçün bir-birini didənlər,***
***Vəzifəyə görə yallı gedənlər,***
***Anlamır ki, bu xoş xəyal, gümandı,***
***Keşdi dövran, indi başqa zamandı.***

Amma Şirxan Aranlı ümidini itirmir, ömrün dolaylarında ötən günlərin həsrətini çəksə də yenə gələcəyə üzünü tutur.

Şairlər həmişə hisslərinin, duyğularının əsiri olmuşlar. Bu hisslər, duyğular gah ağrılı olub, gah da çiçəkli. Təbii ki, həyatdan, gerçəklikdən yaranıb bu duyğular və ürəkdə kök salıb, sonra bu ürəkdəki duyğular şeirə çevrilib. Şirxan Aranlı ömrünün son illərində ağır ürək xəstəliklərinə tutulur. "Ömür ver Allahım, ömür ver mənə" deyin yaşamaq uğrunda mübarizə aparıb, və indi də o mübarizə davam edir. Xəstəxanada keçirdiyi duyğular neçə şeirə çevrilib. Xəstəxanada baxıcı qıza həsr etdiyi şeirdə oxuyuruq:

***Tanrı dərd yükünü çiynindən asıb,***
***Bu yükü daşımaq çətindən çətin.***
***Bir az dözümlü ol, xəstə bacısı***
***Sınaq meydanısır, dünya, dur mətin***
***Öz qayğın, öz dərdin yadından çıxıb,***
***Qardaş qayğısına bələnib ömrün.***
***Tale çox incidib, səni çox sıxıb,***
***Qayğılar içində əlləşib könlün.***

Bu şeirdən hiss olunur ki, Şirxan Aranlı təkcə öz dərdinə qalmayıb, orda yaran bütün xəstələri düşünüb, onlara baş çəkən ağrılı gözləri seyr edib. Ana dualarını eşidib.

Mən Şirxan Aranlının həm də bir təbiət aşiqi olan bir şair hesab edirəm. onun "Bu dağlar, qoşa dağlar" bölməsində 7 şeiri təqdim olunur.

Azərbaycan şeirində Aşıq Ələsgərdən tutmuş ta bu günün ən gənc şairlərinə qədər dağlar bizim şeirimizin əsas obrazlarından, tərənnüm obyektlərindən biri olub. Hər çair də çalışıb ki, dağlara öz duyğularının prizmasından baxsın. Şirxan Aranlının da Dağlar obrazı özünəməxsusluğu ilə seçilir.




Baxın:

***Yenə güzarımız düşdü qoynuna,***
***Yayı çal-çağırlı, nübarlı dağlar.***
***Elə ki, el-oba dönür yurduna,***
***Qışı çən-dumanlı, qübarlı dağlar.***

***Yerlə-göy qovuşub burda qol-qola,***
***Çənli zirvə buludlarla öpüşür.***
***Duyan gərək, onun seyrinə dala,***
***Duyğulara gözəllikdən xal düşür.***

***Gözlər gərək bu dağılardan zövq ala,***
***Gözəlliyi duymayanlar kor olar.***
***Gözəlliyin sehrində qovrula,***
***Gözəlliyə təşnə olan odlanar.***

Azərbaycan poeziyasını və şairlərimizi sevgisiz təsəvvür etmək mümkün deyil. Şirxan Aranlı da ömrünün bu yaşlı çağlarında "bəlayi eşq"dən yazır. Təbii ki, onun sevgi şeirlərini "payız sevgisi" adlandırmaq olar.

***Saç ağarıb, ömür yaşa dolsa da,***
***Cavanlığın hər çiçəyi solsa da,***
***Güzarımı çən, dumanlar olsa da,***
***Qocalmayıb, taqəti var könlümün.***

Amma buna baxmayaraq, onun duyğularında gənclik illərində yaşanan, indi də qəlbini, ruhunu tərk etməyən o sevgi anları yaşayır.

***Getdin, eşqin badə saldı səsimi,***
***Ürəyimə əsdi hicran nəsimi.***
***Qırılıbdı könül tarım, nə simi?***
***Gözüm incə bir mələkdə qalıbdır.***

O, həqiqi sevgini tərənnüm edir, sevgidə halallıq axtarır. "Oğlanlar" şeirində yazır ki, qızları aldatmayın, qızlara da yazır ki, "gözəlliyə güvənməyin, a qızlar". Ümumiyyətlə, onu əksər şeirlərində gözəllik dünyanın, insanlığın mənəvi qüdrəti kimi vəsf olunur.

Şirxan Aranlı xeyli ithaf şeirlərinin də müəllifidir. Övladlarına, nəvələrinə, yaxın adamlarına xeyli şeirlər həsr edib - hamısında da ata, baba, ağsaqqal mehrini görürük.

Onun "Bir ömrün yollarında" lirik poeması həyat yoldaşına həsr edilib və mənim fikrimcə, əsdl sevgi duyğusunu bu poemada çox gözəl ifadə edib. 45 illik qoşa ömür mənalı keçib, sevgilərlə yaşanıb:

***Necə gözəl günlər idi o günlər,***
***Şirin ömür xoş dəmlərə çatardıq.***
***Xoşbəxtliyin qucağında sübhədək,***
***Arzularla mışıl-mışıl yatardıq.***

Şirxan Aranlı mənsur şeirlər, hekayələr və esselər də yazır. Təbii ki, bu tipli şeirlərdən də poeziya ruhu hiss olunur. Həmin janrların özü bunu tələb edir. Nəsrə məxsus cümlələrdə məhz şeir elementləri nəzərə çarpır. Təfərrüata varmıram, yalnız "Şəhidliyə gedən yol" mənsur şeirdən bir kiçik parçanı misal gətirəcəyəm:

"Ömürdən-candan keçir şəhidliyə gedən yol. Ölümdən-qandan keçir, qeyrətdən, vardan keçir şəhidliyə gedən yol!

... Məramından, məqsədindən dönməzdi,

Ölməzdi bu yolun yolçusu.

Ölümsüz ölümün şəhidlik zirvəsində yurddaşar, ədəbi yaşarlığı ilə ədəbiyyətə qovuşar. Şəhidliyə gedən yol!"

**Şirxan Aranlıya - yaşının bu yetmiş beşində könül xoşluğu, cansağlığı və ədəbi uğurlar arzulayıram.**

Duan keçməmiş qapımdan,
canımdan yüz qarğış keçdi

İçimdə iki böldüyün
bir adamsan tək-tək ayrı;

Ekspert: "Elə bir mexanizm